Milli Azərbaycan Tarixi Muzeyi

“ERMƏNİSTANIN DÖVLƏT TERRORİZMİ AZƏRBAYCAN FOTOQRAFLARININ OBYEKTİVİNDƏ”

fotosərgisi

“ANADIR arzulara hər zaman QARABAĞ”

sərgisində

BAKI 2021

Milli Azərbaycan Tarixi Muzeyi

27 sentyabr - 10 noyabr 2020-ci il tarixlərində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatı nəticəsində Qarabağ ərazisi və yeddi rayon erməni işğalçılarından azad olundu. Ermənistan silahlı qüvvələrinin və müxtəlif ölkələrdən cəlb olunmuş muzdlu və terrorçuların darmadığın edildiyi 44 günlük müharibə Azərbaycan tarixinə "Vətən müharibəsi" adı ilə daxil olmuşdur.

Cəbhədə məğlubiyyətə düçar olan Ermənistan hərbi-siyasi rəhbərliyi erməni ifrat millətçilərinin ən sevdiyi silaha - terrora əl atdı. Beləliklə, Ermənistanın terrorizmi dövlət siyasətinin bir ünsürünə çevirdiyi ölkə olduğu bir daha təsdiqləndi.

Azərbaycan Respublikası Baş Prokurorluğunun verdiyi məlumata görə, 27 sentyabr - 14 dekabr 2020-ci il tarixlərində ölkəmizin dinc şəhər və kəndlərinin atəşə tutulması, təxribatçıların hücumları və mina partlayışları nəticəsində Azərbaycanın 101 mülki vətəndaşı həlak olmuş, 43 nəfər yaralanmışdır.

Milli Azərbaycan Tarixi Muzeyində Azərbaycan Fotoqraflar Birliyinin köməyi ilə Vətən müharibəsinə həsr olunmuş "Anadır arzulara hər zaman Qarabağ" sərgisinin tərkib hissəsi kimi "Ermənistanın dövlət terrorizmi - 2020" fotosərgisində döyüş bölgələri və atəşə məruz qalmış ərazilərdə, eləcə də işğaldan azad edilmiş torpaqlarda olmuş, erməni terrorizmini öz gözləri ilə görüb, fotoapparatları ilə tarixə həkk etmiş Azərbaycan fotoqraflarının əsərlərinin bir qismi sərgilənir. Fotoşəkillərin döyüş əməliyyatları gedən vaxt və ya dərhal əməliyyatlardan sonra çəkilməsi onları danılmaz tarixi mənbəyə çevirir. Fotosərginin təşkilində məqsəd respublika ictimaiyyəti və xarici qonaqları çəkilmiş fotoşəkillərin tarixi əhəmiyyətinə cəlb etməkdir.

Fotosərgidə təqdim olunan işlər Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fonduna daxil edilərək, daimi eksponat kimi qorunacaqdır.

FOTOSƏRGİNİN İŞTİRAKÇILARI

Əziz **KƏRİMOV**

Famil **MAHMUDBƏYLİ**

İlkin **SƏLİFOV**

Maya **BAĞIROVA**

Mirnaib **HƏSƏNOĞLU**

Vəli **ŞÜKÜRZADƏ**

Elgün **GƏNCİMSOY**

ƏZİZ KƏRİMOV

1987-ci ildə Bakı şəhərində anadan olub.

2012-ci ildə “Azərbaycan Fotolarda” layihəsində çalışıb.

2013-cü ildən AP (Associated Press), 2015-ci ildən REUTERS agentliyi ilə əməkdaşlığa başlayıb. Azərbaycan Fotoqraflar Birliyinin keçirdiyi müsabiqədə “İlin Press Fotoqrafı” mükafatını qazanıb.

2014-cü ildən Almaniya, Çexiya, Belçika, Fransa, Gürcüstan, Türkiyədə təlimlərdə iştirak edib

2015-ci ildə YARAT-ın “MAGNUM” foto agentliyi ilə keçirdiyi 20 günlük yay məktəbində iştirak edib. Londonda “İnsan həyatı” və “İnsanlarımız” mövzusunda digər ölkələrdən olan fotoqraflarla birlikdə çəkdiyi fotolar sərgilənib. CNN, Al Jazeera, The New York Times, The Los Angeles Times, Lenta.ru, Kavkaz-uzel.ru və s. çəkdiyi fotolar dərc olunur.

2020-ci ildə FriD Ort təşkilatçılığı ilə keçirilən müsabiqədər “Free Media Award 2020” mükafatını qazanıb.

18
В 933 00

FAMİL MAHMUDBƏYLİ

1979-cu ildə Bakı şəhərində anadan olub.

2013-cü ildə “Sülhün təsviri” Bakıda fotosərgisində iştirak edib.

2014-cü ildə “Qarabağ müharibəsi uşaqları!” Brüseldə keçirilən foto sərgidə iştirak edib. “Dədə Qorqud” fondu tərəfindən Diplomla təltif olunub.

2015-ci ildə Kosovo və Makedoniyada “Qarabağ müharibəsi uşaqları” foto sərgisində iştirak edib. Azərbaycan Fotoqraflar Birliyində “Seçki+M” adlı foto müsabiqəsində ayın qalibi olub.

2016-cı ildə Tbilisidə “Ağdam və Tovuzda ön cəbhə xəttində yaşayan ailələr”-dən foto sərgisi keçirilib.

2018-ci ildə AR Vergilər Nazirliyinin dəstəyi ilə keçirilən “Uşaqların gələcəyi naminə” foto sərgisinin qalibi olub və xüsusi mükafata layiq görülmüşdür.

2017-ci ildə “Elm və Həyat” jurnalında 2016-cı ildə aprel döyüşlərində çəkilən fotoları dərc edilib.

2018-ci ildə 1988-ci ildə Ermənistandan məcburi köçürülən soydaşlarmızdan bəhs edən foto sərgisi keçirilib.

2020-ci ildə AFB-nin “Evdə qal, foto çək!” aylıq müsabiqəsində 1-ci yer tutub.
“Ön cəbhədə savaşanlar” (COVID -19) pandemiyası ilə mübarizə aparan Azərbaycan həkimlərin fədakarlığını və qəhrəmanlığından bəhs edən sərgisi keçirilib.

27.09.2020 -30.11.2020 - Vətən müharibəsində Bərdə, Tərtər, Ağdam, Gəncə - şəhər və rayonlarında cəbhə xəttində və ondan uzaqda düşmənin törətdiyi müharibə cinayətlərinin qeydə alınması üçün foto çəkilişlər edib.

2021-ci ildə Vətən müharibəsindən çəkilən fotoları erməni təcavüzünü ifşa edən “The True Face of Aggression: Through İnjustice and Bloodshed” kitabına təqdim olunub (kitab çapdadır).

electronics

İLKİN SƏLİFOV

1991-ci ildə Bakı şəhərində anadan olub.

Təhsilini iqtisadiyyat ixtisası üzrə Bakı Dövlət Universitetində alıb.

2016-cı ildə Azərbaycan Fotoqraflar Birliyinin təşkil etdiyi aylıq müsabiqədə iki dəfə qalib olub. Həmin ildə Çelyabinsk şəhərində keçirilən VII Beynəlxalq foto festival "FOTOFEST 2016"-da iştirak edib.

2017-ci ildə Azərbaycan Fotoqraflar Birliyi, Azərbaycan Dövlət İnformasiya Agentliyi və "ASAN Könüllüləri" təşkilatının dəstəyi ilə keçirilən "Könüllülər hərəkatı fotoqrafların gözü ilə I Ümumrespublika açıq fotosərgisi"nin sertifikatı ilə təltif olunub.

MAYA BAĞIROVA

1993-cü ildə Bakı şəhərində anadan olub.

Bakı İncəsənət Gimnaziyasını, Üzeyir Hacıbəyov adına Musiqi Akademiyasını bitirib. Beynəlxalq Muğam Mərkəzində fotoqraf işləyib.

2016-cı ildən Parisdə "Spéos" məktəbində və "Paris Match" jurnalında təhsilini davam etdirir.

İştirak etdiyi sərgilər:

2015-ci il: "Salon des Beaux-Arts", Paris

2016-cı il: Cornette de Saint Cyr "La solitude"

2016-cı il: Cornette de Saint Cyr "Grandeur Nature"

2019-cu il: Bakı Fotoqrafiya Evində "Adlar" fotosərgisi

2019-cu il: Bakıda "Paris" fərdi sərgisi.

Mükafatları:

2015-ci il: SNBA Qızıl Medalı, Fransa

SNBA Jüri Qızıl Medalı – "Jean Larivier" mükafatı

2015-ci il: Bronz Medalı "İlin fotoqrafı", Azərbaycan

2018-ci il: "Grand Prix Etudiant de Paris Match" müsabiqəsinin finalçısı

MİRNAİB HƏSƏNOĞLU

1962-ci ildə Gəncə şəhərində anadan olub.

1982-ci ildən Peşəkar fotoqrafiya ilə çalışır.

1984-1989 illərdə Azərbaycan Dövlət İncəsənət İnstitutunda təhsil alıb.

2000-ci ildə Gənclər və İdman Nazirliyinin foto müsabiqəsində II yer; ABB şirkətinin İsveçrədə "What is Khnolith" müsabiqəsində I yer; BMT-nin Azərbaycanda AİDS-lə mübarizə mövzusunda keçirdiyi müsabiqədə I yer; "Free Person" İnsan hüquqlarının müdafiəsi cəmiyyətinin foto müsabiqəsində II və III yerlər; Azərbaycan Ftoqraflar Birliyi tərəfindən "İlin fotoqrafı" adına layiq görülüb.

2001-ci ildə "Price water house" şirkətinin keçirdiyi foto müsabiqəsində I yer; Monqolustanda Ulan-Batr Dövlət müzeyində Fərdi foto sərgisi olub; Ekologiya foto müsabiqəsində II yer.

2002-ci ildə Qırğızıstanda "Qadın Lider" müsabiqəsinin iştitakçısı; "Respublika" bankının keçirdiyi "Uşaqlar Gələcəyimizdir" müsabiqəsində II yer; "Paris yay 2002" fərdi foto sərgi Bakı Qız qalası qalereyası; Yunanıstan Soloniki şəhərindəki dövlət müzeyində "Yaralı torpaq" adlı fərdi foto sərgi olub; Azərbaycan Fotoqraflar Birliyi tərəfindən "Qızıl Arqus" mükafatı; Daşkənddə keçirilən "Əziz qocalar" foto müsabiqəsi.

2003-cü ildə Naxçıvan şəhərinda "Paris yay-2002" fərdi foto sərgi; Starsburq "Yaralı torpaq" adlı fərdi foto sərgi olub; Daşkəndə "2003-Diploma award from "Mahalla-World Where is life" musabiqəsində diploma layiq görülüb.

2004-ci ildə ABB şirkətinin İsveçrədə keçirdiyi müsabiqəsində III yer; BMT-nin Azərbaycan ofisinin "Kasıbçılıq və gələcək" fotomüsabiqəsinin diplomunu alıb; UNİFEM-Azerbaijan "Women against of Violence" fotosərgisində iştirak edib.

2005-ci ildə Bakıda "Qadın" fotosərginin iştirakçısı; "Azərbaycan İzvestiyası" qəzetinin Tamaşaçı rəğbəti mükafatına layiq görülüb; Karvansarayın Tbilisidə keçirdiyi Lahiyəsinin iştirakçısı; ADB-nin "Azərbaycan" layihəsini işləyib; Fransa səfirliyinin maliyyə dəstəyi ilə Azərbaycanın 5 şəhərində məktəblilər arasında "Dialoq" adlı ekoloji foto sərgini keçirib.

2006-ci ildə Qazaxıstanın Aktau şəhərində Xəzər dostluq dənizidir festivalının

qızıl medalı; Azərbaycan Turizm və Mədəniyyət nazirliyinin keçirdiyi fotomüsabiqədə I yer.

2008-2009-cu illərdə "Aserbaidschan Land Des Feuers" Berlin Etnoqrafiya muzeyinin buraxdığı kitabın müəlliflərindən biri; Londonda Parlament binasında "The People the World Forgot" sərgisi və kitabının müəlliflərindən biri; Berlində "Berg Karabach" fərdi sərgisi keçirilib.

2010-ci ildə "Two Photo-Talks on a Tragedy" Xocalı haqında kitabın müəliflərindən biri; Beyləqan ensiklopediyasının foto müəlliflərindən biri; Avstriyada Vyana şəhərində "Black January" sərgisi keçirilib.

2011-ci ildə Azərbaycan Fotoqrafları Birliyinin sədri seçilib; "Qafqaz Amazonları" kitabının foto müəlliflərindən biri; "20 sketches on Baku" foto albomunun müəlliflərindən biri; Parisdə Senatda "Haut Garabagh" fərdi foto sərgisi keçirilib.

2012-ci ildə Rusiya Çelyabinsk şəhəri “Fotofest 2012” festivalında “Долгое эхо войны” fotosərgisində iştirakı; “Bakı keçidləri 360” kitabının müəlliflərindən biri; Bakıda Muzey Mərkəzi “Долгое эхо войны” fotosərgisində iştirakı; “Azərbaycan Sikkələri” fotokitabının müəlliflərindən biri olub.

2013-cü ildə Minsk şəhərində “Yaxın Şərq Əməkdaşlıq” forumunda fərdi fotosərgisi keçirilib; “Qədim Qalanın Yuxuları” fotoalbomunun müəlliflərindən biri olub.

2014-cü ildə “Qobustan-Minilliklərin kitabı” adlı fotoalbomunun müəlliflərindən olub.

2015-ci ildə “20 yanvar Tariximizin qanlı və şanlı səhifəsi” fotoalbomunun müəlliflərindən biri; “Şərq əməkdaşlığının Ailə albomu ” fotoalbomunun müəliflərindən biri.

2016-cı il iyun Malatiya Uluslararası fotokampın iştirakçısı.

VƏLİ ŞÜKÜRZADƏ

1993-cü ildə Bakı şəhərində anadan olub.

2015-ci ildən fotoqrafiya ilə məşqul olur.

“United Colors of Azerbaijan” adlı layihə ilə küçə fotoqrafiyasına başlayıb.

2017-ci ildə Gürcüstanda keçirilən “Azərbaycan Gürcüstan Fotogünləri” sərgisində iştirak edib.

2020-ci ildə “Formula 1 Azərbaycan Qran Prisinin” keçirdiyi foto yarışmada 3-cü yerə layiq görülüb.

Avropa Oyunları, İslam Oyunları, UEFA futbol çempionatı, Formula-1, ölkəmizdə keçirilən Beynəlxalq tədbirlərdə iştirak edib. Həmçinin ölkəmizdə keçirilən sərgilərdə iştirak edib, diplom və sertifikatla təltif olunub.

2020-ci ildə başlayan “Vətən Müharibəsində” fotoqraf kimi cəbhəyanı bölgələrdə aktiv fəaliyyət göstərib.

Badam

ELGÜN GƏNCİMSOY

1987-ci ildə Ağdam rayon Əlimədədli kəndində anadan olub.

Orta və distant ali təhsillidir, ixtisasca reklamçıdır.

Ekstrimal jurnalistika üzrə kursları bitirib və təlimlərdə iştirak edib.

Konflikt Jurnalistikası Məktəbində oxuyub.